# Dua ibadətdir

Numan bin Bəşirdən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Dua ibadətdir", sonra bu ayəni oxudu: "Rəbbiniz belə buyurdu: “Mənə dua edin ki, dualarınızı qəbul edim! Mənə ibadət etməyə təkəbbür göstərənlər zəlil bir halda cəhənnəmə girəcəklər" [Ğafir 40 surəsi, ayə 60].

[Səhih] [Əbu Davud, Ət-Tirmizi, İbn Məcə, Əhməd rəvayət ediblər]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, dua ibadətin əsasıdır. Burada önəmli olan budur ki, edilən dua sırf Allah üçün olmalıdır, bu dua istər istək və tələb duası olsun, belə ki, Allah Təalədən dünya və axirətdə özünə fayda verən şeyləri umub və zərər verən şeyləri dəf etməyi istəsin, yaxud da ibadət duası olsun, bu isə Allahın sevib və razı qaldığı zahiri və batini əməllərdən və sözlərdən, həmçinin qəlbi ilə, bədəni ilə və mal-dövləti ilə icra edilən ümumi ibadətlərdən ibarətdir. Arxasınca Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) uca Allahın bu kəlamını dəlil gətirərək deyir: Uca Allah buyurur: "Mənə dua edin ki, dualarınızı qəbul edim! Mənə ibadət etməyə təkəbbür göstərənlər zəlil bir halda cəhənnəmə girəcəklər".



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee